

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 48 (23.460)

*11 mart 2020-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


### Rəsmi xronika




Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.

İclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açaraq müstəqil Azərbaycan dövlətinin qurucusu ulu öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyasını yaradıcı surətdə davam etdirdiyinə və Azərbaycan xalqının maraqlarına xidmət edən dövlətçilik fəaliyyətinə görə Prezidentə təşəkkürünü bildirib.

Dövlətimizin başçısı altıncı çağırış Milli Məclisin öz işinə başlaması münasibətilə bütün deputatları ürəkdən təbrik edib, onlara uğurlar arzulayıb. Prezident İlham Əliyev, ilk növbədə, beşinci çağırış Milli Məclisin deputatlarına göstərdikləri fəaliyyətə görə təşəkkürünü bildirib. Vurğulanıb ki, beşinci çağırış Milli Məclis, onun deputatları, rəhbərliyi ölkəmizin uğurlu inkişafı istiqamətində böyük rol oynayıb, parlament tərəfindən qəbul edilmiş qanunlar bizim uğurlu inkişafımızın hüquqi bazasını gücləndirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev altıncı çağırış Milli Məclisin də uğurla fəaliyyət göstərəcəyinə və beləliklə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirib.

### İcmal

## Naxçıvan yeni dövrə qədəm qoyur

### Ötən ay muxtar respublikamızda baş verən hadisələr belə deməyə əsas verir



*Tarixin səhifələrinə hələ də bir-birinin əksi, lakin muxtar respublika reallığında əksi olduğu qədər də mümkünlüyü təsdiq olunan blokada və inkişaf sözləri artıq doğma diyarımızın 30 illik bir zaman kəsiyini təşkil edir. O 30 il ki başlanğıcda sabaha, daha sonra yaxın gələcəyə, sonra isə perspektivə hesablanmış fəaliyyət proqramları, düşünülmüş siyasət, əzmkarlıq, iradə, dözüm, ən əsası isə böyük vətənpərvərlik, yurdsevərlik bir qərinəlik zamanı tarix edə bilib. Bu tarixin səhifələrinə yeniliklərin, innovasiyaların tətbiqi ilə muxtar respublikamızın hər ötən ilinin uğurları, nailiyyətləri həkk olunub. 2020-ci ili Naxçıvan Muxtar Respublikasında "İxrac ili" kimi tarixiləşdirən fevral ayının xronikasında da ümumi inkişafı şərtləndirən hadisələr sıralanır.*

Ölkəmizdə idarəçilik sistemində yeni islahatların tətbiqi ilə son iki ildə formalaşan publik hüquqi şəxs fenomeni dövlət büdcəsinin maliyyələşmə yükündən azad olmasını, maliyyə sərbəstliyini, dövlətin bir sıra sahələrin fəaliyyətinə daha realist nəzərlərlə yanaşması nöqteyi-nəzərindən təqdirəlayiq hal kimi dəyərləndirilir. Publik hüquqi şəxslərin yaradılması, fəaliyyət göstərməsi və təşkili qaydaları "Publik hüquqi şəxslər haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Müxtəlif sahələrdə islahatların həyata keçirilməsi, əhaliyə daha yaxşı xidmət göstərilməsi məqsədilə muxtar respublikamızda da bir sıra müəssisələr publik hüquqi şəxsə çevrilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası Radio-Televiziya Ötürücü Mərkəzinin publik hüquqi şəxsə çevrilməsi haqqında" 2020-ci il 1 fevral tarixli Sərəncamı ilə Radio-Televiziya Ötürücü Mərkəz, "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2020-ci il 5 fevral tarixli Sərəncamla isə Yoluxucu Xəstəliklər Mərkəzi, Ağciyər Xəstəlikləri Dispanseri və Naxçıvan Şəhər Təcili Tibb Mərkəzi publik hüquqi şəxslərə çevrilmişlər. Publik hüquqi şəxs statusu həmin müəssisələrdə çalışan işçilərin sosial vəziyyətinin yaxşılaşdırılmasına da stimul olur. Adıçəkilən sərəncamla hər üç publik hüquqi şəxsin göstərdiyi ödənişli tibbi xidmətlərdən daxil olan vəsaitin 50 faizi işçilərin əməkhaqlarına əlavələrin verilməsinə yönəldiləcəkdir. Fevralın 5-də imzalanan "Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsin işçilərinin aylıq vəzifə maaşlarının artırılması haqqında" Sərəncamla isə burada çalışan işçilərin aylıq vəzifə maaşları 2020-ci il fevralın 1-dən 50 faiz artırılmışdır.

***"Bədən tərbiyəsi və idman insanın hərtərəfli inkişafını, sağlam həyat tərzini təmin edir, əhalinin əmək qabiliyyətini yüksəldir, uzunömürlülüyü artırır, zərərli vərdişlərin qarşısını almaqla gəncləri fiziki və mənəvi cəhətdən Vətənin müdafiəsinə hazırlayır. Naxçıvan Muxtar Respublikasında əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verilir. Yaradılan şərait idmanın kütləviliyinə, muxtar respublikamızda beynəlxalq və ölkə səviyyəli yarışların keçirilməsinə şərait yaradır".*** Bu dəyərli fikirləri fevral ayının 1-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" müşavirədə Ali Məclis Sədri cənab Vasif Talıbov söyləmişdir.

Ali Məclisin Sədri muxtar respublikada əhalinin sağlam həyat tərzinin, xüsusən də böyüməkdə olan gənc nəslin hərtərəfli inkişafının təmin edilməsində bədən tərbiyəsi və idmanın roluna böyük əhəmiyyət verildiyini vurğulamışdır.

Muxtar respublika rəhbəri müşavirədə idmanın daha da inkişaf etdirilməsi üçün peşəkar məşqçilərin hazırlanması və idmançılara məşğələlərin keçirilməsi, muxtar respublikaya təcrübəli məşqçilərin dəvət olunması, "Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi"ndə istifadəyə veriləcək Xizək Mərkəzində muxtar respublikada xizəksürmə idman növünün inkişafı üçün idmanın bu növünə marağın artırılması, gənclərlə fəal iş aparılması, məhdud fiziki imkanlı gənclərin muxtar respublikanın idman həyatına daha fəal inteqrasiyasının davam etdirilməsi, hamiliyə götürülən ixtisaslarda gənclərlə işin davam etdirilməsi, ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarət edilməsi, Uşaq-gənclər şahmat və idman məktəblərinin fəaliyyətlərinin gücləndirilməsi, təhsil müəssisələrində idman yarışları və spartakiadaların təşkil edilməsi və digər məsələlər barədə aidiyyəti qurumlara tövsiyə və tapşırıqlarını vermişdir.

Müşavirədə digər məsələlərlə yanaşı, oktyabr ayında Naxçıvan şəhərində keçiriləcək 16 yaşadək şahmatçılar arasında Ümumdünya Şahmat Olimpiadasına hazırlıq işlərinin görülməsi, olimpiadada muxtar respublika şahmatçılarının iştirakının təmin edilməsi, uşaq və gənclərin idmana cəlbinin kütləviliyinin artırılması və "İdman festivalı"nın keçirilməsi ilə bağlı da tapşırıqlar verilmişdir.

Muxtar respublikamızda bütün sahələrdə olduğu kimi, idmanla məşğul olaraq uğur qazananların da əməyi daim qiymətləndirilir. Müşavirədə Ali Məclisin Sədri tərəfindən 2019-cu ildə ölkə və beynəlxalq yarışlarda uğurlu nəticələrə görə 7 idmançıya və 3 məşqçi-müəllimə mükafat təqdim edilməsi bu ənənənin davamıdır.

Ötən ayın xronikasında da qeyd olunduğu kimi, Prezident cənab İlham Əliyev Azərbaycan Respublikasında dövlət quruculuğu işlərində xüsusi xidmətlərinə görə "V.Y.Talıbovun "Şərəf" ordeni ilə təltif edilməsi haqqında" 2020-ci il 13 yanvar tarixdə Sərəncam imzalamışdır.

Fevralın 4-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovu qəbul etmiş, "Şərəf" ordenini cənab Vasif Talıbova təqdim etmişdir.

Ali Məclisin Sədri fəaliyyətinə verilən yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirmiş, Naxçıvan Muxtar Respublikasında görülən işlər barədə dövlətimizin başçısına məruzə etmiş, 2019-cu ildə Naxçıvanda müxtəlif sahələrdə qazanılan uğurlardan danışmış və bütün bu uğurların əldə olunmasında Prezident cənab İlham Əliyevin göstərdiyi diqqət və qayğını dərin minnətdarlıq hissi ilə qeyd etmişdir.

Prezident cənab İlham Əliyev Naxçıvanda 2019-cu ildə əldə olunmuş uğurlar münasibətilə cənab Vasif Talıbovu təbrik etmiş, Naxçıvan Muxtar Respublikasının inkişafı və təhlükəsizliyi məsələlərinin daim onun diqqət mərkəzində olduğunu vurğulayaraq prezidentlik dövründə 14 dəfə Naxçıvana səfər etməsini bu diqqətin təzahürü kimi dəyərləndirmişdir.

Muxtar respublikada qəbul edilmiş dövlət proqramlarının uğurla icrası sosial-iqtisadi inkişafı təmin etmiş, makroiqtisadi göstəricilər bütün parametrlər üzrə artmış, yeni sənaye müəssisələri yaradılmış və yerli istehsalın həcmi çoxalmışdır. Elə bunun nəticəsidir ki, bu gün muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi istehsalçıların xarici bazarlara çıxışlarını və bu istiqamətdə təşviq tədbirlərinin artırılmasını zəruri etmişdir. Həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirmiş, rəqabətədavamlı və ixracyönlü məhsullar istehsal edən yeni müəssisələr yaradılmış, yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir.

Görülən işlərin nəticəsi olaraq fevralın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "2020-ci ilin Naxçıvan Muxtar Respublikasında "İxrac ili" elan edilməsi haqqında" imzaladığı Sərəncam ixrac potensialının artırılması və ixraca dövlət dəstəyinin daha da gücləndirilməsinə xidmət edəcəkdir. Elə həmin gün – fevralın 6-da Ali Məclis Sədrinin sahibkarlarla görüşünü, bu görüşdə dəyərli çıxış, tövsiyə və tapşırıqlarını "İxrac ili" nin fəaliyyət proqramı kimi dəyərləndirmək olar.

İstehsal olunan məhsulların ixrac potensialını yaratmadan özəl bölmənin inkişafından danışmağın mümkün olmadığını vurğulayan muxtar respublika rəhbəri bu sahədə dövlətin üzərinə düşən vəzifələri

*Ardı 2-ci səhifədə*

yerinə yetirdiyini, sahibkarlara dəstək verdiyini, ixracın təşviqi sahəsində ardıcıl tədbirlər görüldüyünü, nəticənin isə uğurlu olduğunu bildirmişdir: ***"10 ildən artıqdır ki, muxtar respublikanın xarici ticarət dövriyyəsində müsbət saldo qeydə alınır. 2019-cu ildə də muxtar respublikanın xarici ticarət dövriyyəsinin həcmi 497 milyon ABŞ dollarından çox olmuş, ticarət əməliyyatlarının 85 faizdən çoxu ixracın payına düşmüşdür. Muxtar respublikada şəffaf vergi sisteminin formalaşdırılması iqtisadi inkişafı təmin etməklə yanaşı, həm də sahibkarlıq fəaliyyəti üçün geniş imkanlar açmışdır. Xüsusilə vergi inzibatçılığına yol verilməməsi, vergi nəzarətinin təkmilləşdirilməsi və uçotun düzgün aparılmasının nəticəsidir ki, 2019-cu ildə büdcə gəlirlərinin 84 faizə yaxını vergi daxilolmaları hesabına formalaşmışdır".***

Ali Məclisin Sədri Naxçıvan Muxtar Respublikasında sosial-iqtisadi inkişafın təmin olunmasında və özəl bölmədə uğurlu nəticələrin qazanılmasında əməyi olanlara, eləcə də bütün sahibkarlara təşəkkürünü bildirərək demişdir ki, muxtar respublikada sahibkarlığın inkişafı üçün bütün tədbirlər görülmüşdür. Yaradılan imkanlardan səmərəli istifadəyə gəlincə isə Ali Məclisin Sədri aid dövlət qurumlarına yerli xammala əsaslanan və tələbatı ödəyən istehsal sahələrinin yaradılması istiqamətindəki səylərini artırmaları, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrə yol verilməməsi haqqında tapşırıqlar vermiş, sahibkarlara onlar üçün yaradılmış işgüzar mühitdən səmərəli istifadəni tövsiyə etmişdir.

Ötən ayın xronikasında fevralın 9-u ölkəmizdə, eləcə də onun ayrılmaz tərkib hissəsi olan muxtar respublikamızda əlamətdar tarixi hadisə ilə yadda qalmışdır. Həmin gün Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə növbədənkənar seçkilər keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov həmin gün ailə üzvləri ilə birlikdə 4 saylı Naxçıvan Şəhər Seçki Dairəsinin Heydər Əliyev adına tam orta məktəbdə yerləşən 4-15 saylı seçki məntəqəsində səs vermiş və seçki prosesinin gedişi ilə maraqlanmışdır.

Ölkəmizdə hər zaman qonşu dövlətlərlə dinclik və əmin-amanlıq şəraitində yaşamağa, onların tarixinə, mədəniyyətinə hörmətlə yanaşmağa üstünlük verilib. Fevralın 11-də İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun İran İslam Respublikasının yaranmasının 41-ci ildönümü – İslam İnqilabı Günü münasibətilə təşkil etdiyi rəsmi qəbulda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı, qardaş İran xalqını təbrik etməsi bunu bir daha təsdiqləmişdir.

Ali Məclisin Sədri ümummilli liderimiz Heydər Əliyevin ***"İran ilə Azərbaycan arasındakı əlaqələrin çox zəngin tarixi vardır. Biz Azərbaycan-İran əlaqələrinə xüsusi əhəmiyyət veririk. Ümid edirəm ki, gələcəkdə də bu əlaqələr inkişaf edəcəkdir"*** fikirlərini xatırladaraq demişdir ki, ulu öndərin yolunun uğurla davam etdirilməsi nəticəsində ölkələrimiz arasındakı dostluq və əməkdaşlıq ilbəil möhkəmləndirilir. Ölkə prezidentlərinin qarşılıqlı səfərləri, həyata keçirilən rəsmi səfərlər dövlətlərarası münasibətləri yeni inkişaf mərhələsinə yüksəldib. Bunun sayəsində ikitərəfli əlaqələrdə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə İran İslam Respublikası arasındakı əməkdaşlıq xüsusi yer tutur.

İdman sağlam gəncliyin yetişməsində birinci amil olduğu üçün muxtar respublikamızda bu sahəyə böyük diqqət və qayğı göstərilir. Bu qayğının davamı olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 14 fevral tarixdə imzaladığı Sərəncam idmanın inkişafı üçün yeni innovasiyaların tətbiqini meydana çıxarır.

Dövlət proqramında yuxarıda qeyd olunan məqsədlərə nail olunması üçün müvafiq nazirlik və aid təşkilatlar qarşısında mühüm vəzifələr qoyulmuşdur.

Muxtar respublikada əhalinin keyfiyyətli ət və süd məhsullarına olan tələbatının ödənilməsi məqsədilə hərtərəfli şərait yaradılmışdır. Lakin heyvanların, quşların və arı ailələrinin sayının artması, həmçinin muxtar respublikanın yerləşdiyi coğrafi mövqe baytarlıq xidmətinin maddi-texniki bazasının daha da möhkəmləndirilməsini və bu sahə üzrə dövlət proqramının qəbul olunmasını zərurətə çevirmişdir. Bu məqsədlə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" 2020-ci il 17 fevral tarixdə Sərəncam imzalamışdır.

Dövlət proqramından gözlənilən nəticələri – heyvandarlıqda istehsalın və məhsuldarlığın artırılmasını, yoluxucu xəstəliklərə qarşı qabaqlayıcı tədbirləri, daxili bazarın keyfiyyətli ekoloji təmiz heyvandarlıq məhsulları ilə təmin olunmasını, heyvandarlıqda baytarlıq-sanitariya işinin müasir dövrün tələblərinə uyğunlaşdırılmasını, cins tərkibinin yaxşılaşdırılması hesabına intensiv yolla məhsul istehsalının artırılmasını və baytarlıq sahəsində mütəxəssislərin hazırlanmasını nəzərə almaqla böyük əminliklə demək olar ki, bu yeniliklər muxtar respublikada baytarlıq təbabətinin inkişafında mühüm mərhələ olacaqdır.

Fevral ayının birinci yarısında olduğu kimi, ikinci yarısında da Ali Məclisin Sədri cənab Vasif Talıbov tərəfindən mühüm sərəncamlar imzalamışdır. Onlardan biri – "Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzinin yaradılması haqqında" 2020-ci il 19 fevral tarixli Sərəncam muxtar respublikamızın həyatında daha bir yeniliyin tətbiq olunması baxımından mühüm əhəmiyyətə malikdirsə, digəri – "Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin mükafatının verilməsi haqqında" 2020-ci il 21 fevral tarixində imzalanan Sərəncam təhsil və ictimai fəaliyyəti ilə fərqlənən Zahid Qənbərovun mükafatlandırılması isə diyarımızda əməyi ilə fərqlənən insanlara göstərilən qayğının davamı kimi xarakterizə olunur.

Ölkəmizdə Milli Məclisə, muxtar respublikamızda isə Ali Məclisə keçirilən növbədənkənar parlament seçkilərindən sonra, 2020-ci il 22 fevral tarixdə "Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasının çağırılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı imzalanmış və fevralın 24-nə birinci sessiya çağırılmışdır. Beləliklə, həmin gün altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyası keçirilmişdir. Ali Məclisin deputatları müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin mərkəzində əzəmətlə ucalan abidəsini ziyarət etmiş, abidə önünə tər güllər düzmüşlər.

Sonra sessiya öz işinə başlamış, gündəlikdə duran birinci – Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin seçilməsi məsələsinə baxılmışdır. Seçkilərdə 7 saylı Yuxarı Aralıq Seçki Dairəsi üzrə 94, 6 faiz səs toplamış Vasif Yusif oğlu Talıbov hesablayıcı komissiyanın yekun protokoluna əsasən səsvermədə iştirak edən 45 deputatın hamısının lehinə səs verməsi ilə yenidən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçilmişdir.

Beləliklə, ümummilli liderimiz Heydər Əliyevin yolunun 1995-ci ildən davam etdirilməsi nəticəsində bütün sahələrdə uğur və inkişaf əldə edilmiş, həmçinin yerli istehsalın həcmi artmış, yeni istehsal müəssisələri yaradılmış, iş yerləri açılmış, əhalinin məşğulluğu və rifahı yaxşılaşdırılmış, ərzaq, enerji və müdafiə təhlükəsizliyi təmin olunmuş, daxili tələbatı idxal hesabına ödənən, böyük ixrac potensialı olan Naxçıvan Muxtar Respublikasının qarşısında daha böyük inkişaf və tərəqqiyə aparan yeni dövr başlanmışdır.

Ali Məclisin Sədri muxtar respublika Mərkəzi Seçki Komissiyasına, dairə və məntəqə seçki komissiyalarına, seçkilərin qanunvericiliyin tələbləri səviyyəsində keçirilməsini təmin edən bütün aidiyyəti orqanlara təşəkkür etmiş, altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlarına muxtar respublika seçicilərinin etimadına layiq görüldüklərinə görə təbriklərini çatdırmışdır. Muxtar respublika rəhbəri qarşıdakı dövrdə də ulu öndərin yoluna sadiq qalaraq Naxçıvan Muxtar Respublikasının inkişafının təmin edilməsinin, əhalinin yaşayış səviyyəsinin daha da yaxşılaşdırılmasının, yeni istehsal sahələrinin və bununla bərabər iş yerləri yaradılmasının, sosial sahələrin inkişafına diqqətin artırılmasının zəruriliyini vurğulamışdır.

Ali Məclisin Sədri sessiyaya yekun vuraraq muxtar respublikanın inkişafında, sabitliyin və sərhədlərin qorunmasında əməyi olanların hamısına təşəkkürünü bildirmiş, qarşıdakı dövrdə inkişafın təmin olunmasında sessiya iştirakçılarına, muxtar respublikanın hər bir sakininə uğurlar arzulamışdır.

Azərbaycan torpaqları hesabına öz dövlətlərini yaratmaq və "böyük Ermənistan" ideyasını gerçəkləşdirmək istəyən ermənilər 1905-1907, 1918-1920, 1948-1953-cü illərdə azərbaycanlılara qarşı terror, kütləvi qırğın, deportasiya və etnik təmizləmə həyata keçirmişlər. 1992-ci il fevralın 26-da törədilən Xocalı soyqırımı da ötən əsr boyu azərbaycanlılara qarşı törədilmiş soyqırımı siyasətinin davamı, erməni qəddarlığının daha bir təzahürüdür. Dinc əhaliyə qarşı həyata keçirilən bu soyqırımı təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa qarşı yönəlmiş ən ağır cinayətdir.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlıları, Dağlıq Qarabağda yerləşdirilmiş erməni terrorçu dəstələri və keçmiş Sovet ordusunun Xankəndi şəhərindəki 366-cı motoatıcı alayı Xocalı şəhərinə basqın etmişdir. Dinc sakinlər xüsusi amansızlıqla qətlə yetirilmiş, bir gündə 613 nəfər işgəncə ilə öldürülmüşdür. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Xocalı soyqırımı barədə demişdir: ***"Bu faciə xalqımızın, vətəndaşlarımızın öz Vətəninə, torpağına, millətinə sadiqliyinin nümunəsidir. Xocalıda şəhid olanlar, həlak olanlar Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda mübarizədə, Azərbaycanın müstəqilliyi uğrunda mübarizədə şəhid olublar, özlərini qurban veriblər. Onların şəhidliyi gələcək nəsillərimiz üçün qəhrəmanlıq nümunəsi olacaq və onların xatirəsi qəlbimizdə əbədi yaşayacaqdır".***

Fevralın 26-da Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə kompleksində Xocalı soyqırımının 28-ci ildönümü ilə əlaqədar tədbir keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov abidə önünə tər güllər qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmişdir.

*Beləliklə, ötən ay muxtar respublikamızın həyatındakı bir-birindən mühüm və əhəmiyyətli hadisələr, xüsusilə növbədənkənar parlament seçkilərinin müvəffəqiyyətlə başa çatması, cənab Vasif Talıbovun Naxçıvan Muxtar Respublikası Ali Məclisinə yenidən Sədr seçilməsi deməyə əsas verir ki, Naxçıvan yeni bir dövrə qədəm qoymuşdur. Çünki Ali Məclis Sədrinin 25 illik fəaliyyəti ümummilli liderimizin yoluna, ideyalarına, siyasətinə əsaslanıb. Cənab Vasif Talıbovun altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında söylədiyi kimi:* ***"Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının əsasında Heydər Əliyev siyasi xətti dayanır. Dahi rəhbərin yoluna sədaqət qarşıda dayanan vəzifələrin uğurlu icrasını təmin edəcəkdir".***

**Mətanət MƏMMƏDOVA**

## Test imtahanı mərhələsi keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya tərəfindən 2020-ci il 7 mart tarixdə prokurorluq orqanlarında vakant vəzifələrin tutulması üçün elan olunmuş müsabiqənin test imtahanı keçirilib.

Məlumat üçün bildirək ki, müsabiqəyə çıxarılmış 8 vakant vəzifənin tutulması üçün 28 nəfər sənəd vermiş, test imtahanında 27 namizəd iştirak etmiş, 19 nəfər müvafiq keçid balını toplamışdır. İmtahanda namizədlərə ixtisas üzrə 80, məntiqi təfəkkürün yoxlanılması üzrə 20 sual olmaqla, 100 sual təqdim olunmuş, sualları cavablandırmaq üçün 3 saat vaxt verilmişdir. İxtisas sahəsi üzrə suallar 1 balla, məntiqi nəticə çıxarma qabiliyyətini yoxlayan suallar isə 0,5 balla qiymətləndirilmişdir.

Qanunvericiliyə uyğun olaraq test imtahanında müvafiq keçid balını (70 və daha çox) toplamış namizədlər müsahibə mərhələsində iştirak etmək hüququ qazanmışlar.

Onu da qeyd edək ki, prokurorluq orqanlarında işə qəbul mərkəzləşdirilmiş qaydada müsabiqə və şəffaflıq əsasında, elektron proqram təminatı tətbiq olunmaqla test imtahanları vasitəsilə keçirilir. Test imtahanında obyektivliyin və şəffaflığın tam təmin edilməsi məqsədilə imtahanın videoçəkilişi aparılmışdır. İmtahan bitdikdən dərhal sonra namizədlərə nəticəyə dair arayış təqdim edilmişdir. Nəticələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında *(www.dqmk.nmr.az)* yerləşdirilmişdir.

Test imtahanında Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları müşahidəçi kimi iştirak etmişlər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti***

## Əmək pensiyalarının maliyyələşdirilməsi vaxtından əvvəl başa çatdırılıb

*Ölkəmizdə həyata keçirilən sosial islahatların əsas məqsədi əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifah halının yaxşılaşdırılmasıdır. Bu islahatların nəticəsi olaraq əhalinin aztəminatlı təbəqəsi sayılan pensiyaçılara və sosial qayğıya ehtiyacı olan vətəndaşlara aylıq ödənişlərin vaxtlı-vaxtında maliyyələşdirilməsi təmin edilir.*

Muxtar respublikamızda da əhalinin sosial müdafiəsi, məşğulluğun təmin edilməsi, gəlirlərin artırılması ilə bağlı bir sıra işlər görülür. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bilavasitə diqqət və qayğısı ilə sahibkarlıq fəaliyyəti inkişaf etdirilir, yeni iş yerləri yaradılır. Habelə vətəndaşlara əməkhaqqı, pensiya və müavinətlərin hər ay vaxtında ödənilməsi diqqət mərkəzində saxlanılır. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu da muxtar respublikada əmək pensiyalarının vaxtından əvvəl maliyyələşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirir. Əvvəlki aylarda olduğu kimi, cari ilin mart ayında da əhaliyə pensiya və müavinətlərin ödənilməsi vaxtından əvvəl başa çatdırılıb. Təyin olunan əmək pensiyalarının və müavinətlərin ödənişi plastik kartlar və poçt bölmələri vasitəsilə həyata keçirilib.

Qeyd etmək lazımdır ki, muxtar respublikada pensiyaların plastik kartlarla bankomatlar vasitəsilə və yaşayış yerlərində poçt bölmələri vasitəsilə ödənilməsi işi yüksək səviyyədə qurulub. Bütün bunlar isə pensiyaçılara göstərilən xidmətin səviyyəsinin daha da yüksəlməsinə imkan yaradıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondu bundan sonra da öz üzərinə düşən tapşırıqları operativ qaydada həyata keçirməyə davam edəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri görülür

2020-ci ilin fevral ayında Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli vergi orqanları tərəfindən muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə monitorinq və yoxlamalar aparılmışdır.

Keçirilən tədbirlər zamanı 2 şəxsin "Fərqlənmə nişanı" almadan sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu və 1 şəxsin isə vergi orqanlarında uçotda durmadan fəaliyyət göstərməsi müəyyən edilmiş və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülmüşdür.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

# Aqrar sığorta: etibarlı zəmanət, bol qazanc

*Ərzaq təhlükəsizliyi tarixboyu dünyada ən mühüm həyat təminatı sistemlərindən biri kimi aktuallığını saxlamışdır. Bu gün də gündəlik istehlak səhətimizdə ərzaq məhsulları xüsusi çəkiyə malikdir. Ərzaq məhsullarının əsasını isə, heç şübhəsiz ki, kənd təsərrüfatı məhsulları təşkil edir. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi zərurətdir.*

Ölkəmizdə həyata keçirilən aqrar siyasətin əsasında da ərzaq təhlükəsizliyinin təminatı dayanır. Bu səbəbdən də kənd təsərrüfatının inkişafı, əhalinin təbii, ekoloji təmiz məhsullara olan tələbatının yerli istehsal hesabına ödənilməsi, idxaldan asılılığın azaldılması ilə bağlı ardıcıl proqramlar qəbul edilir, kənd təsərrüfatı məhsulları istehsalçılarına subsidiyalar, lizinq yolu ilə güzəştli şərtlərlə kənd təsərrüfatı texnika və avadanlıqları verilir, vergi güzəştləri tətbiq edilir. Hazırda ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalçıları 2024-cü ilədək torpaq vergisi istisna olmaqla, digər vergilərdən azaddır. Yəni mövcud qanunvericiliyə əsasən kənd təsərrüfatı məhsullarının istehsalçıları mənfəət, gəlir, əlavə dəyər vergisini, sadələşdirilmiş sistem üzrə vergini və həmin fəaliyyət prosesində istifadə olunan obyektlərdən əmlak vergisini ödəməkdən azad edililər.

Naxçıvan Muxtar Respublikasında aqrar sahənin inkişafı ərzaq təhlükəsizliyinin təmin olunması sahəsində görülən işlərin əsas istiqamətidir. Son illər ardıcıl şəkildə qəbul olunmuş dövlət proqramları, xüsusilə də 2015-ci ilin muxtar respublikada "Kənd təsərrüfatı ili", 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması, aidiyyəti orqanların bu istiqamətlərdə imkanlarını səfərbər etməsi kənd təsərrüfatının kompleks inkişafını təmin etmiş, yeni-yeni ailə təsərrüfatlarının, xüsusilə də kəndli təsərrüfatlarının yaranmasına gətirib çıxarmışdır. 2020-ci ilin "İxrac ili" elan olunması isə yerli kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılması, xüsusilə də aqrar sənayenin inkişafının dəstəklənməsi istiqamətində atılan mühüm addımdır.

Muxtar respublikada aqrar sığortanın tətbiqindən danışarkən kənd təsərrüfatında mövcud vəziyyəti diqqətə çatdırmaq, əldə olunan nailiyyətləri bir daha oxuculara xatırlatmaq istərdim. İlk növbədə, bundan başlayım ki, 2019-cu ildə muxtar respublikada kənd təsərrüfatı məhsulunun ümumi həcmi 507 milyon 641 min manatdan çox olmuş, onun ümumi daxili məhsulda çəkisi 12 faiz təşkil etmişdir. Bu isə son 8 ilin ən yüksək göstəricisidir.

Muxtar respublikada toxumçuluq təsərrüfatlarının yaradılması və genişləndirilməsi, əkinəyararlı torpaqların aqrokimyəvi analizlərinin aparılması, əkin atlaslarına uyğun əkinlərin həyata keçirilməsi, məhdud kənd təsərrüfatına yararlı torpaq sahələrindən səmərəli istifadə olunması muxtar respublikada əkinçilik üzrə məhsuldarlıq göstəricilərində öz əksini tapmışdır.

1 yanvar 2020-ci il tarixə muxtar respublikada suvarılan torpaq sahəsi ötən illə müqayisədə 799 hektar çox olmaqla, 62 min 231 hektar təşkil etmişdir. Bu artım isə Kəngərli və Şahbuz rayonlarında yeni qurulmuş qapalı suvarma şəbəkələrinin, həmçinin Babək, Culfa, Ordubad rayonlarında və Naxçıvan şəhərində meyvə bağlarının salınması və həmin sahələrin su ilə təmin edilməsi hesabına mümkün olmuşdur. Son dövrlər həyata keçirilmiş islahatlar nəticəsində 2019-cu ildə muxtar respublikada 33 min 308 hektar sahədə taxıl əkini aparılmış, əkin sahələrindən 102 min 984 ton taxıl məhsulu yığılmışdır ki, bu göstəricilər son 4 ilin ən yüksək göstəriciləridir. Məhsuldarlıq isə orta hesabla hər hektara 30,9 sentner təşkil etmişdir ki, bu da son 12 ilin ən yüksək göstəricisi kimi qeydə alınmışdır.

Kartof əkini üzrə də ötən il muxtar respublikada bu dövrədək mövcud olan ən yüksək göstəricilər müşahidə edilmişdir. Belə ki, 3228 hektar sahədə kartof əkini aparılmış, 50 min 92 ton məhsul əldə edilmiş, hər hektar üçün orta məhsuldarlıq 155,2 sentner təşkil etmişdir. Kartof istehsalının 33,7 faizi Şərur rayonunun payına düşmüşdür.

Muxtar respublikada son dövrlər tütünçülüyün inkişafı istiqamətində atılmış addımlar da artıq öz bəhrəsini verməkdədir. Ötən il 50,5 hektar sahədə tütün əkini aparılmış, 97,2 ton məhsul əldə edilmişdir ki, bunun da 72,7 faizi Kəngərli rayonunun payına düşmüşdür.

Yeni yaradılmış Şərur Sənaye Məhəlləsində yaxın gələcəkdə qarğıdalı yağı istehsalı sahəsinin fəaliyyətə başlaması isə bu məhsulun əkininə marağı daha da artıracaq. Xatırladaq ki, 2019-cu ildə tədarük məntəqələri tərəfindən məhsul istehsalçılarından qarğıdalının hər kiloqramı 40 qəpikdən qəbul edilmişdir.

Heyvandarlıq sahəsində də ötən il yüksək nəticələr əldə olunmuş, ümumilikdə, 15 min 517 ton ət (kəsilmiş çəkidə), 85 min 637 ton süd, 89 milyon 629 min 800 ədəd yumurta istehsal edilmişdir ki, bunlar da müvafiq olaraq bu dövrədək qeydə alınmış ən yüksək göstəricilərdir.

Kənd təsərrüfatının inkişafında, bu sahədə yüksək məhsuldarlıq əldə edilməsində muxtar respublikada fəaliyyət göstərən bank və digər kredit təşkilatlarının rolu da danılmazdır. 2019-cu il ərzində kredit təşkilatları tərəfindən verilmiş kənd təsərrüfatı yönümlü kreditlərin həcmi 12 milyon 434 min 300 manat təşkil etmişdir ki, bu da əvvəlki ilin göstəricisi ilə müqayisədə 2 dəfədən çox artım deməkdir.

Təbii ki, muxtar respublikada kənd təsərrüfatının inkişafı, eyni zamanda yuxarıda sadaladığım uğurlar həyata keçirilən aqrar siyasətin birbaşa nəticəsidir. Ancaq bu sahədə həyata keçirilən mühüm dövlət tədbirlərinə baxmayaraq, nəzərə almaq lazımdır ki, kənd təsərrüfatı iqtisadiyyatın digər sahələrindən özünəməxsus xüsusiyyətləri, o cümlədən təbii-iqlim şəraitindən asılılığı baxımından fərqlənir. Eyni zamanda aqrar sahədə risk faktorunun yüksək olması, bütövlükdə, iqtisadiyyatın stabil inkişafına mənfi təsir göstərən amillərdən birinə çevrilir.

Kənd təsərrüfatı istehsalına xas olan risklər aqrar sahənin səmərəli kreditləşməsinə də mane olur. Belə ki, təbii-iqlim şəraitinin əlverişsizliyi səbəbindən yaranan itkilərin sığortalanmaması, nəticə etibarilə, maliyyə fəaliyyətinə də ciddi zərər vurur. Nəticədə, bu məqsədlə götürülmüş kreditlərin qaytarılma imkanları məhdudlaşır, bank sektorunun isə bu sahəni kreditləşdirmə marağı azalır.

Bu və digər faktorlar nəzərə alınaraq aqrar sahədə risklərin aşağı salınmasının mühüm vasitələrindən ən başlıcası məhz kənd təsərrüfatı məhsullarının sığortalanmasıdır. Sığortalanma nəticəsində zərərvericilər, xəstəliklər, həmçinin quraqlıq, dolu və digər bu kimi təbii hadisələr səbəbindən yaranacaq risklərin minimuma endirilməsi, cüzi sığortahaqqı qarşılığında baş verə biləcək sığorta hadisələrindən minimum zərərlə çıxılması imkanı təsərrüfatçılarda bu sahəyə marağı daha da artırır.

Kənd təsərrüfatı istehsalının sığortalanması prosesində dövlətin aktiv müdaxiləsi isə baş verə biləcək





problemlərin həllinin ən effektiv yollarından biri sayılır ki, bu da inkişaf etmiş ölkələrin təcrübəsində geniş tətbiq olunur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 8 yanvar tarixli Fərmanı ilə yaradılmış Aqrar Sığorta Fondu bu sahədə muxtar respublikamızda kənd təsərrüfatının inkişafı istiqamətində aparılan tədbirlərin davamı olaraq böyük əhəmiyyət kəsb edir. Fondun yaradılmasında məqsəd kənd təsərrüfatı məhsulları istehsalçılarının təbii fəlakət və ya digər sığorta hadisələrindən sığortalanmasında dövlətin iştirakını təmin etməklə aqrar sahədə sığortanın inkişafını stimullaşdırmaq və sığortaolunan təsərrüfat subyektlərinə dəyən zərərin ödənilməsinə verilən zəmanətin iqtisadi əsaslarını gücləndirməkdən ibarətdir. Fond tərəfindən sığorta şərtləri müəyyən edilərkən xarici təcrübə əsas götürülmüşdür.

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq olunmuş sığorta predmetləri üzrə müəyyənləşdirilmiş sığortahaqqının 50 faizinin dövlət vəsaiti hesabına, qalan 50 faizinin isə istehsalçının öz şəxsi vəsaiti hesabına ödənilməsi nəzərdə tutulmuşdur. Aqrar sığortanın predmetinə kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları üzrə buğda, arpa, qarğıdalı, kartof, şəkər çuğunduru, tütün, üzüm, limon, badam daxil edilmişdir. Kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar üzrə isə 1 yaşdan 7 yaşa qədər südlük inək və camışlar, akvakultura məhsulu üzrə isə balıqlar sığorta predmeti kimi müəyyən edilmişdir. Sığorta predmetləri üzrə risklərin tərkibinə təbii fəlakətlər qismində zəlzələ, torpaq sürüşməsi, qasırğa, fırtına, dolu, həmçinin yanğınlar, bitki xəstəlikləri və zərərvericiləri, yoluxucu heyvan xəstəlikləri və zəhərlənmələr, o cümlədən ilan və ya həşərat sancması nəticəsində ölüm, zəhərli otlar və yemlərdən zəhərlənmə nəticəsində ölüm, kütləvi zəhərlənmələr nəticəsində ölüm, vəhşi heyvanların hücumu və xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu, üçüncü şəxslərin hərəkətləri nəticəsində ölüm halları daxil edilmişdir.

Bitkiçilik məhsulları üzrə sığorta məbləği 1 hektardan əldə edilmiş məhsulun dəyərinin 70 faizi həcmində hesablanmışdır. 1 hektardan alınan məhsulun dəyərinin hesablanması zamanı isə 1 hektar əkinə görə məhsuldarlıq göstəricisi əsas götürüldüyündən və bu göstərici şəhər və rayonlar üzrə fərqli olduğundan sığorta məbləği də buna uyğun olaraq diferensiallaşdırılmışdır. Sığortahaqqı isə bütün hallarda sığorta məbləğinin 5 faizi həcmində müəyyən edilmişdir. Müəyyən edilmiş sığortahaqqının 50 faizinin istehsalçı, 50 faizinin isə dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi nəzərdə tutulmuşdur. Məsələn, Naxçıvan şəhərində 1 hektar buğda əkini sahəsində orta məhsuldarlıq 30 sentner, 1 sentner buğdanın qiyməti isə 35 manat olduğundan 1 hektar sahədən əldə edilmiş buğda məhsulunun dəyəri 1050 manat (30*35) təşkil edir. Bu halda sığorta məbləği 735 manat (1050*70%) olacaq. Sığorta məbləğinin 5 faizi həcmində sığortahaqqı müəyyən edildiyindən cəmi sığortahaqqı 36,75 manat (735*5%) təşkil edəcək. Sığortahaqqının 50 faizi dövlət büdcəsi vəsaiti hesabına ödənildiyindən təsərrüfatçı tərəfindən ödənilən sığortahaqqı 18,37 manat (36,75*50%) olacaq. Bu isə o deməkdir ki, əvvəlcədən əkilmiş 1 hektar buğda sahəsi üçün ödənilmiş 18,37 manat kiçik sığortahaqqı qarşılığında baş vermiş hər hansı sığorta hadisəsi zamanı müvafiq komissiyanın rəyinə uyğun olaraq 1 hektar buğda sahəsinə dəymiş zərərə görə Aqrar Sığorta Fondu tərəfindən zərərçəkən sığortalıya 735 manat məbləğində vəsait ödəniləcəkdir.

Onu da qeyd etmək lazımdır ki, bitkiçilik məhsullarına görə sığorta məbləği və sığortahaqqı gələcəkdə məhsuldarlıqda və qiymətlərdə baş vermiş dəyişikliklər nəzərə alınmaqla hesablanır.

Südlük inək və camışlara görə sığorta məbləği heyvanın yaşına uyğun olaraq qiymətinin 100 faizi həcmində, sığortahaqqı isə sığorta məbləğinin 6 faizi həcmində müəyyən edilmişdir. 1 baş heyvana görə hesablanan sığortahaqqının da 50 faizinin mal sahibi, 50 faizinin isə dövlət büdcəsi vəsaiti hesabına ödənilməsi nəzərdə tutulmuşdur. Məsələn, 2 yaşdan 4 yaşa qədər olan bir baş südlük inəyin orta bazar qiyməti 1400 manat olduğundan sığorta məbləği 1400 manat (1400*100%), sığortahaqqı isə 84 manat (1400*6%) olacaq. Sığortahaqqının 50 faizi dövlət büdcəsi vəsaiti hesabına ödənildiyindən mal sahibi tərəfindən ödəniləcək məbləğ 42 manat (84*50%) təşkil edəcək. Sığorta hadisəsi zamanı dəymiş zərərə görə fond tərəfindən sığortalıya müvafiq komissiyanın rəyi əsasında nəzərdə tutulmuş sığorta məbləğinin ödənilməsi təmin ediləcəkdir.

Akvakultura məhsullarına (balığa) görə sığorta məbləği hesablanarkən 1 kiloqram balığın qiyməti nəzərə alınır. Sığorta məbləği və sığortahaqqı isə müvafiq olaraq 100 faiz və 6 faiz təşkil edir.

Ümumilikdə, kənd təsərrüfatı məhsullarının sığortalanması könüllü şəkildə tərəflərin qarşılıqlı inam və etibarlılıq prinsipi əsasında həyata keçirilir. Bu məqsədlə sığortalı tərəfindən sığorta hadisəsi baş verən zaman problemlərlə üzləşməmək üçün təsərrüfatlar standartlara uyğun şəkildə qurulmalı, bitkiçilikdə dərmanlama, alaq otlarının təmizlənməsi, mütərəqqi əkin üsullarından istifadə edilməsi, vaxtında və düzgün suvarılma, kənd təsərrüfatı heyvanlarının saxlanma şəraiti, peyvəndləmə tədbirlərinin vaxtında aparılması və digər zoobaytar tədbirlərin həyata keçirilməsi təmin edilməlidir.

Aqrar sığorta sisteminin tətbiqi kənd təsərrüfatının dinamik inkişafına böyük təkan verəcək. Düzdür, bu gün bu sığorta növü könüllü şəkildə həyata keçirilir. Ancaq min bir zəhmətlə məhsul yetişdirib son məhsulu əldə edəbilmə qayğısı olan hər bir təsərrüfatçı özünü baş verə biləcək bütün risklərdən qorumağı bacarmalıdır. Yalnız bu halda təsərrüfatdan gəlir əldə etmək haqqında düşünmək olar. Baş verə biləcək risklər isə bir çox hallarda böyük xərclərlə nəticələnir. Ödəyəcəyimiz kiçik sığorta haqları isə bizləri bu böyük xərclərdən azad edəcək. Bu baxımdan aqrar sığorta sistemi təsərrüfatçının sabit gəlirləri üçün zəmanət rolunda çıxış edir.

*Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin birinci sessiyasında Ali Məclis Sədrinin bu sahədə müəyyən etdiyi vəzifələr, o cümlədən sessiyada qəbul olunmuş fəaliyyət proqramında muxtar respublikada sığorta işinin təkmilləşdirilməsi, aqrar sığorta bazarının formalaşmasına və inkişafına köməklik göstərilməsi, Aqrar Sığorta Fondunun fəaliyyətinin gücləndirilməsi istiqamətində aidiyyəti təşkilatlar qarşısında qoyulmuş tapşırıqlar bu sahənin dövlətin daim diqqət mərkəzində olduğunu bir daha təsdiq edir.*

**Elçin ƏLİYEV**
***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri***

## 10 mart – Milli Teatr Günü ilə bağlı tədbir keçirilib



*Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 10 mart – Milli Teatr Gününə həsr olunmuş tədbir keçirilib.*

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova açıb.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasında teatrların fəaliyyətinə hərtərəfli dövlət qayğısı göstərilir, onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Teatr binaları yenidən qurularaq istifadəyə verilir, qastrol səfərləri genişləndirilir.

Bildirilib ki, bu gün qədim diyarımızda Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, 5 xalq teatrı klassik və çağdaş dramaturgiyanın dəyərli nümunələri, dünya klassiklərinin əsərləri əsasında hazırlanmış tamaşaları səhnəyə qoymaqla tamaşaçıların mənəvi və estetik zövqünün formalaşmasında, asudə vaxtlarının səmərəli təşkilində əhəmiyyətli rol oynayır.

Qeyd olunub ki, müstəqillik illərində Naxçıvan teatrının tədqiqi ilə bağlı da bir sıra uğurlu işlər həyata keçirilib, monoqrafiya və kitablar nəşr olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə nəşr olunan "Naxçıvan teatrının salnaməsi" kitabı bu baxımdan yüksək qiymətə layiqdir.

Diqqətə çatdırılıb ki, muxtar respublikada teatr sənətinin inkişafında xidmətləri olan insanların əməyi də dövlətimiz tərəfindən yüksək qiymətləndirilir.

Nazir Naxçıvanda teatr sənətinin inkişafına göstərdiyi böyük diqqət və qayğıya görə muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını ifadə edib, teatrsevərlərə gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Sonda Nəbi Xəzrinin "Burla xatun" əsəri əsasında hazırlanan tamaşa nümayiş olunub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

Milli dəyərlərimizi öyrənək və yaşadaq

# Naxçıvan mətbəxindən gələn deyimlər

***Qədim Naxçıvan diyarı təbii sərvətləri, uca dağları, əlçatmaz qayaları, zəngin vadiləri, coşqun dağ çayları, gümüşü bulaqları, min bir xəstəliyin dərmanı olan mineral suları ilə yanaşı, deyimləri ilə də məşhurdur. Bu gün nəzər yetirəcəyimiz deyimlər isə dadlı-duzlu mətbəximizdən gəlir.***

*Bulamac qazanı asıldı,*
*Qapı-bacalar basıldı,*
*Yandı dilim, bulamac,*
*Kəsildi kilim, bulamac!*

Qədimdə adətə görə, kilimin, xalçanın hanadan kəsilmə vaxtı qonum-qonşu, qohumlar “kilim kəsdi”yə, “xalça kəsdi”yə gələrmişlər. Kilimin, xalçanın hanadan ayrıldığı gün yaxşı yeməklər bişirilər, bulamac bulanarmış. Ehtimal ki, bu deyim də həmin vaxt yaranıb.

Bulamacla bağlı maraqlı bir rəvayət də var: Deyirlər, qədimdə qız bəyənən oğlan həmin qızla ailə qurmaq üçün onun nəslinin ağsaqqallarının buyurduğu bir işi bacarıqla yerinə yetirməli idi. Bir gün eyni tayfada yaşayan iki gənc bir-birinə aşiq olur. Vədə gəlib yetir və həmin oğlan ona verilən işi görmək üçün qız evinə gəlir. Qızın atası düyünlü bir kötüyü oğlanın qarşısına qoyur və onu bölməyini istəyir. Bu işi yerinə yetirəcəyi təqdirdə qızını ona verəcəyini deyir. Oğlan baltanı kötüyün ortasına nə qədər vurursa, kötük parçalanmır. Bunu görən qız bilmir ki, necə eləsin, sevdiyinə kömək olsun. Elə bu vaxt ağlına bir fikir gəlir. Tez-tələsik ocaqda bulamacı bişirib isti-isti qaba tökür. İsti bulamacla dolu qabı gətirib oğlanın yaxınlığındakı köpəyin qarşısına qoyur. Ac heyvan dilini bulamacın içinə salır və bulamac isti olduğundan onun dili yanır. Bunu görən qız tez dillənir: “Bulamacı boşqabın kənarından yala ki, dilin yanmasın, ay Allahın dilbilməzi”. Adaxlısının sözlərini eşidən oğlan başa düşür ki, kötüyü kənardan baltalamaq lazımdır, ortasından yox. Və ağıllı qızın bu misalı imtahan edilən oğlana kömək olur. O, kötüyü rahatca parçalayıb öz istəyinə çatır.

Uşaqlarla bağlı el mərasimləri əsrlərboyu yaşadılaraq bu günə qədər gəlib çatıb. Xalqımızın belə mərasimlərindən biri də uşağın ilk dişinin çıxması münasibətilə keçirilən hədik mərasimidir. Uşaq deyər: “Atam-anam bilsəydilər ki, mən necə əziyyətlə diş çıxarıram, tez mənə hədik qoyardılar”. Bu deyim də hədik adlandırdığımız qədim yemək növünə aiddir. Qədim inanclara görə, əsasən, ailə üzvlərinin, qohum-qonşu qadınların və uşaqların iştirak etdiyi bu mərasimdə körpənin dişinin asanlıqla çıxması üçün hədik bişirilir. Hədiyin bişirilməsində yeddi növ paxlalı və dənli bitkidən (buğda, qarğıdalı, lobya, mərci, noxud və sair) istifadə edilir. Bunlar bir gün qabaqcadan suya qoyulur, bişmə müddətləri



müxtəlif olduğuna görə ayrı-ayrılıqda su və ya südlə bişirilir. İnsanlar inanırlar ki, bu dənlər çırtladığı kimi, uşağın dişi də damağını asanlıqla yaracaq, əziyyət vermədən çıxacaq. Bişirilmiş hədikdən uşağa da dadızdırlar. Hədiyin bir hissəsi nimçələrdə qohum-qonşulara paylanar, xeyir-duaları alınar. Qaydaya görə, hədik qabı boş qaytarılmaz, içinə hədiyyə və ya şirniyyat qoyular.

Naxçıvan folkloruna aid rəvayətlərdən birində deyir ki, hədikdən xörək kimi ilk dəfə Nuh Peyğəmbərin zamanında istifadə olunub. Belə ki, Nuh Peyğəmbərin bütün canlılardan bir cüt yığdığı gəmidə qida qurtarır. Peyğəmbər çıxılmaz vəziyyətdə qalır. Çuvalların dibində hərəsindən yarı ovuc qalan dənli və paxlalıları bir qazana tökərək Allaha dua edir. Allahın qüdrəti ilə Nuhun qazanı aşıb-daşır, çoxalır. Gəmidəki bütün canlılar həmin təamdan yeyib doyur, hətta artıq da qalır. Hədik xörəyi məhərrəmlik ayında (Aşura günü) ehsan məqsədilə də bişirilir.

Tahir Əmiraslanovun “Söz mətbəxi” kitabında bir çox Naxçıvan deyimləri özünə yer alıb:

*Açıqcılar yarpağı,*
*Astanalar torpağı.*
*Hər kim balamı istəmir*
*Gözünə bibər yarpağı.*

Açıqcı (acıqımı, qıjı) xalq təbabətində yeməli ot kimi də işlədilir. Xoşagələn ətri, dadı var. Bu bitki yazın son aylarında, əsasən, Şərur bölgəsində bitir. Yazda bitən pencərlər içərisində dadı ilə seçilən bu bitkiyə həmin bölgədə “acıqcı” da deyirlər. Qaynadılıb qovurma ilə bişirilir. Bibər yarpağı isə acı olduğundan bayatıda belə işlənir. Bibərin yarpağının və tərəvəzin özünün nəzər qaytardığına inanılır. Bu gün də həmin fikirdə olanlar var və o, indi yeni tikililərin giriş qapısından asılır, körpələrin paltarına qırmızı bibər formasında muncuqların taxıldığının şahidi oluruq.



“Doşab aldım, bal çıxdı” ifadəsini çox tez-tez eşidirik. Əlbəttə ki, diyarımızda tutdan, qarpızdan, üzümdən müxtəlif bitkilərdən şəfalı doşablar hazırlanır. Doşabla bərabər, Naxçıvan balından da qədimdən yemək və müalicə məqsədilə istifadə edilib. Bu deyim məcazi mənada evə gətirilən gəlinə aid edilir. Əvvəllər ailə quranda iki gənc birbirini görməzdi. Buna analar, atalar qərar verərdilər. Qızın evdarlığını, səliqəsini analar, bacılar, bibilər, xalalar görüb, bilib bəyəndirərdilər. Bu təriflərdən sonra görməzəbilməzə ən azından bəkməz, yəni sağlamlıq gətirən şirin bir həyat yoldaşı gözləyərdilər. Evə gətirəndən sonra gəlinin daha mərifətli, xoşxasiyyət, zirək olduğunu gördükdə onu doşabdan da qiymətli, faydalı və şirin nemətə – bala bənzədər, doşab deyil, bal aldıqlarını deyərdilər.

Adətən, qarayanız adamları əzizləmək üçün deyilən bir deyim də belədir: “Ağ ayranı çölə tökərlər, qara kişmişi cibə”. “İnsana xarici görünüşünə görə deyil, ağlına, qabiliyyətinə görə qiymət verilməlidir” mənasına gələn bu deyimdə kişmişin qara, büzüşmüş, çirkin də olsa, həm şirin, həm faydalı, həm də cibdə gəzdirməyə münasib olduğu göstərilir. Qədimdə babalarımız pulu kisədə, qurşaqda saxlardılar. Ciblərinə isə dəsmala bükülmüş qənd, kişmiş, çərəz qoyardılar. Kişmişi cibdə gəzdirmək bir növ dəbdəydi. Onun doyuruculuğu çox olduğu üçün uzaq səfərə çıxanda ciblərinə kişmiş tökərdilər ki, yolboyu acanda yesinlər.

Asan olmayan iş haqqında deyirlər: “Bu, sənin üçün dım-dım halvası deyil”. Halva bir neçə cür olur: səməni halvası, qoz halvası, küncüd halvası, ədvalı halva və sair. Ən tez və asan bişən halva dımdım halvası hesab olunur. Onu hazırlamaqdan ötrü unu dağ edilmiş yağın içərisində qovuraraq odun üstündən götürür, içərisinə doşab, yaxud bal töküb qarışdırırlar. Bütün bu işləri görmək isə olduqca az vaxt və əmək tələb edir. Buna görə də dım-dım halvası ən tez bişən halva hesab olunur, tez və asan başa gələn iş mənasında işlədilir. Görülməsi çətin olan və çox vaxt sərf edilən bir işi təcili olaraq görməyi tələb etdikdə, adətən, “dım-dım halvası deyil ki, belə tezliklə mümkün olsun”, – deyərlər.

*Əsrlərboyu xalqımızın yaratdığı belə deyimlər milli məişətimizin və folklorumuzun bir parçası kimi bu günümüzə qədər qorunub yaşadılıb. Həmin nümunələr bu gün də qədim diyarımızın ayrı-ayrı bölgələrində işlədilir.*

✍ **Ramiyyə ƏKBƏROVA**

Sağlam həyat tərzi

# Qadın idmanı: gözəlliklə sağlamlığın harmoniyası






*Müxtəlif dövrlərdə qadınların ideal bədən quruluşu, onların idmana yönəldilməsi barədə təzadlı fikirlər səsləndirilib. Məsələn, XIX əsrdə kök və görkəmcə bir qədər güclü görünən qadın ideal hesab edilirdisə, XXI əsrin əvvəlində bu özünü arıq, incə görünüşlə əvəz etməyə başladı. Təbii ki, buna malik olmaq üçün uzun müddət və səylə çalışmaq lazımdır. Qidalanmaya nəzarət etmək, müntəzəm şəkildə idmanla məşğul olmaq vacib şərtdir. Qərb mədəniyyətində qadının idmana cəlbi bu cür təzahür olunur: “Hər şey qadının öz əlindədir”.*

Müasir dövrümüzdə “qadın idmanı – gözəllik, yoxsa kobudluq?” sualı ortaya çıxıb. Qərbdə güc tələb edən qadın idmanı hələ ötən əsrin ortalarından tətbiq edilməyə başlayıb. Qadınların bir çoxu bədən quruluşunu müxtəlif idman növləri ilə “nizamlamağa” tənqidi yanaşırlar. Onlar üçün şeypinqlə, yaxud da aerobika ilə məşğul olmaq, qaçışa üstünlük vermək, ən cəsarətli idman hesab edilən bodibildinqlə məşğul olmaq orqanizmə ziyandır. Lakin həkimlər əzələləri böyütmək üçün böyük çəki ilə işləmək lazım olduğunu vacib bilərək qeyd edirlər ki, həm kişilər, həm də qadınlar eyni məşğələni yerinə yetirə bilərlər. Bu isə o demək deyil ki, idman qadınlar üçün də sağlamlıq mahiyyətini saxlayır. Ona görə həkimlər qadınlara fitnes və ya ağır atletika ilə məşğul olmazdan öncə bunlara riayət etməyi vacib bilirlər:

*- məşqə tələsmədən başlamaq, böyük yüklərdən (alətlərdən) istifadə etməmək;*

*- bədənin yüklərə necə reaksiya verdiyini hiss etmək;*

*- məşq edərkən nəyi və necə etdiyini yadda saxlamaq;*

*- ağır məşqlərə girməmək;*

*- düzgün nəfəs almağı öyrənmək, əsas tapşırıqları mənimsəmək və onları düzgün yerinə yetirməyə çalışmaq;*

*- məşğələlərə trenajorlardan başlamaq, onların köməyi ilə əsas texnikanı mənimsəmək.*

Bu məsələdə əsas problem yüksək fiziki yükə və karbohidrogen-zülal əsaslı qidaların yüksək sərfinə əsaslanaraq əzələ kütləsinin nəzarətsiz qaydada artmasıdır. Bununla belə, söhbət bölgülü qidalanmadan gedir: məşqə qədər karbohidratlar, məşqdən sonra isə zülal. Güc tələb olunan məşqlərdə bu cür bölgüdən imtina etmək orqanizmin normal fəaliyyətinin pozulmasına səbəb ola bilər.

Digər tərəfdən, görkəmini, bədən quruluşunu dəyişmək arzusunda olmayan qadına rast gəlmək çox çətindir. Əlbəttə ki, söhbət, ilk növbədə, artıq çəkidən azad olmaqdan gedir. Təəssüflər olsun ki, ehtiyatsızlığın əvəzini hərdən sağlamlıqla da ödəməli oluruq. Qadınlar bəzən artıq çəkidən azad olmaq üçün orqanizmə uyğun olmayan idman növlərinə üz tuturlar. Bu da qısa zaman kəsiyində öz fəsadlarını göstərir və qadında gözəllik yox, normal olmayan bədən quruluşu formalaşdırır. Bu zaman ortaya belə bir sual çıxır: qadınlar daha çox həvəskar kimi hansı idmandan istifadə edə bilərlər? Gündəlik həyat tərzi və aparılan araşdırmalar göstərir ki, 22-35 yaşlı qadınlar həm bədən quruluşunu düzəltmək, həm də sağlam həyat tərzinə yiyələnmək üçün bədii gimnastika, üzgüçülük, yüngül atletika, tennis kimi idman növləri ilə məşğul olmalıdırlar. Adıçəkilən növlərin insan orqanizmində üstün cəhətləri isə aşağıdakılardır:

*- maksimal qısa müddətə artıq çəkidən azadolma;*

*- əzələ kütləsinin lokal yolla təkmilləşdirilməsi ilə uyğun bədən forması əldə etmək;*

*- orqanizmdə metabolizm prosesini sürətləndirmək;*

*- qadın bodibildinqinin nöqsanları;*

*- ürək-damar fəaliyyətini tənzimləmək;*

*- əzələ kütləsinin tez bir zamanda formaya düşməsi.*

Hazırda dünyada bütün idman növləri sürətlə inkişaf edir. Əlbəttə, həm kişilər, həm də qadınlar hər hansı bir idman növü ilə məşğul olmaq üçün öz seçimlərində azaddırlar. Müasir zamanda öz sağlamlığına və bədən quruluşuna biganə qalmayan qadınlar bəzən bodibildinqə böyük maraq göstərirlər. Lakin zərif cinsin nümayəndələrinin bu idman növünə maraq göstərməsi heç də birmənalı qarşılanmır. Qadın öz incəliyini qorumalıdır. Çünki bodibildinq bədəni bərkidir və əzələ ona həddən artıq kobud görkəm verir. Kişilərlə müqayisədə qadınların bu növə maraq göstərməsi onların sağlamlığında fəsadlar törədə bilər. Çünki qadınlar üçün ciddi nəticələrə nail olmaq daha çətindir. Qadınların qanında testosteronun səviyyəsi kişilərlə müqayisədə 25 dəfə azdır və bu da əzələlərin müqayisə edilməməsi deməkdir.

Aparılan araşdırmalar göstərir ki, qadının məşq etmək üçün ən optimal vaxtı gündüz saat 3-dən 4-ə kimidir. Məşqin davametmə müddəti həftədə 2-3 dəfədən çox olmamaq şərtilə 40-45 dəqiqə nəzərdə tutulur. Ağır güc sərf olunan məşqlərdən sonra bədənin bərpası üçün 1-2 gün lazımdır. Əksər mütəxəssislər güc sərfi ilə müşayiət olunan yükləri üzgüçülük, aerobika, şeypinq və ya qaçışla uyğunlaşdırmağı məsləhət görürlər. Son vaxtlar muxtar respublikamızda qadınların müxtəlif idman növləri ilə fəal məşğul olmaları sayəsində uğurlar qazanması müşahidə olunur. Buna diyarımızda qadın idman bölmələrinin müntəzəm fəaliyyəti üçün yaradılan şərait də geniş imkanlar açır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncamına əsasən ilk dəfə olaraq diyarımızda keçirilən və 5 mart – Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş “İdman festivalı”nda muxtar respublikada fəaliyyət göstərən idman federasiyalarının, həmçinin Şərur Rayon Ağır Atletika Bölməsi və “Xatun” Bədii Gimnastika İdman Klubunun qızlardan ibarət idmançılarının hazırladıqları nümunəvi çıxışlar diyarımızda qızların idmana cəlbi yönündə atılmış müsbət addımların nəticəsidir. Qızların bu sahədə göstərdiyi çıxışlar, eyni zamanda qazanılan uğurlar Naxçıvanda zərif cinsin nümayəndələrinin gündən-günə idmana artan tələbinin göstəricisidir.

✍ **Ceyhun MƏMMƏDOV**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 248